


# Aysun Əhmədə: "Ali təhsilimi Belçika universitetində davam etdirəcəyəm"

## İstedadlı gəncin uğur hekayəsi

Teatr və aktyorluq sənəti barədə fikir və mülahizələr həmişə müxtəlif olub. Teatrın kinoyla müqayisədə tamaşaçıya bir neçə addım yaxın olduğu da danılmaz həqiqətdir. Aktyor öz rolunu təqdim edərkən səhnədə tamaşaçının nəfəsini hiss edir, onunla birbaşa səssiz-səmirsiz əlaqədə olur. Tamaşaçı alqışları aktyora ruh verən, onun əsil sənətkar kimi yetişməsində bilavasitə iştirakçı olan tərəfdir, - desək yanılmarıq. Böyük sənətkarlar biz səhnədə rol oynamırıq, biz səhnədə yaşayırıq, - deyirlər. Hər rolun, yəni personajın psixoloji durumuna adaptasiya olmaq, sonrasa ondan asanlıqla çıxmaq aktyorun özü üçün də rahatlıqla başa gəlmir. Şübhəsiz illərin ona qazandırdığı təcrübə, xüsusilə istedadı və bacarığı sayəsində aktyor, necə deyərlər, roldan-rola keçə bilir, əsil sənətin mahiyyətini təqdim edir. Bu gün haqqında söhbət açacağımız gənc də teatr sənətinin sirlərinə həvəslə yiyələnir.

### Gimnaziya mənə unudulmaz xatirələr və çoxlu dostlar qazandırıb

Aysu Əhmədin 17 yaşı var. O, Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının məzunudur və burada Teatr şöbəsində təhsil alıb. İstedadlı gənc seçdiyi ixtisas üzrə dəfələrlə respublika müsabiqələrinin qalibi olub. Aysu bədii qiraətin sirlərinə daha çox yiyələnib. Söhbət zamanı bu fikri öz dilindən eşitdik. Söylədiyinə görə qiraətin sirlərinə tam yiyələnsin deyə bu sahəyə daha çox meyil göstərib, əlavə məşğələlərə gedib. Hələ yeniyetmə yaşlarından o, vətən, qəhrəmanlıq mövzularında yazılan şeirləri sevə-sevə əzbərləyib və irili-xırdalı səhnələrdə təqdim edib.- Mənim həyatımda gimnaziyanın böyük rolu olub, - söyləyir Aysu. Deyir ki, bu məktəbin rəhbərliyi, müəllimlər ictimai həyatımda həmişə mənə dəstək olublar. Gimnaziya mənə unudulmaz xatirələr və çoxlu dostlar qazandırıb.

### Gərgin zəhmət, davamlı uğurlar

Aysu ilə həmsöhbət olmaq olduqca xoş və rahat idi. Gimnaziyanın teatr şöbəsində yaxşı təhsil aldığı sərbəst danışıq manerasından və ünsiyyət qurmaqda heç bir çətinlik çəkmədiyindən hiss olunurdu. Bu məqamda mənim üçün bir əsas reallıq da aydın oldu. Sevdiyi peşəyə sahib olmaq üçün insan canla-başla çalışarsa, deməli nəticə ürəkaçan olacaq. Aysunun danışdıqca nümayiş etdirdiyi jestlər, tələffüzündəki qiraətçi ustalığı artıq onun seçdiyi peşəyə sahib çıxa bildiyindən xəbər verirdi. Bir danılmaz həqiqət də var ki, bunun da adı zəhmətdir və əziyyət. Buna nail ola bildinsə demək yaşıl işıq sənin arzularını gerçəkləşdirəcək. Bəli o, yalnız zəhməti hesabına bu uğurlara imza ata bilmişdi. Bu barədə gəlin, elə istedadlı gəncin oz dinlindən eşidək:

Gimnaziyada təhsil aldığım müddətdə bir çox məktəbdənkənar fəaliyyətlə məşğul olmuşam, beynəlxalq tədbirlərə dəvətlər almışam. İlk dəfə 16 yaşımda Conference on the Future of Europe - YEAs Editionda "İqlim dəyişikliyi" mövzusuna həsr olunan tədbirdə iştirak etmişəm. Orada ən gənc iştirakçı mən idim. Bundan başqa Youth Environment Assambly, ECOSOC Youth Forum, The 5th Eastern Partnership Youth Forum, Stockholm+50 (Youth Delegate of AEGEE-Europe/ European Students Forum) və onun tərkibində keçirilən The Science Policy Business Forum 2022-də istedad və bacarığımı nümayiş etdirmişəm.

### Mütaliə etməyi çox sevirəm

Uşaq yaşlarından çox fəal olmuşam, idmanı hədsiz dərəcədə sevirdim. 8 yaşımdan üzgüçülüklə, 12 yaşımdan isə basketbolla mütəmadi olaraq məşğulam. Mütaliə etməyi çox sevirəm. Müxtəlif janrlara müraciət edirəm. Homerin, V.Hüqonun, M.Tvenin, Artur Konanın, Doyl Henry Kissingerin, S.Oruellin, R.Palasionun kitablarını böyük maraqla oxuyuram. Çox fərqli görünsə də mən bir klassik kitabı oxuyub qurtarandan sonra dərhal elmi-fantastik kitaba keçid edə bilirəm. Əlavə asudə vaxtım olanda elmi-fantastik filmləri izləməyi də çox sevirəm. Hər zaman yeniliklərə açıq biri olduğumdan internetdə araşdırmalar edərək yeni informasiyalar da toplayıram. Düşünürəm ki, insanlar özlərini limitləyəcək seçimlər etməməli, hər zaman yeniliklərə açıq olmalıdır.

### Daim üzərimizdə çalışmalı, irəli addımlamalıyıq

Hansı arzularını gələcəkdə gerçəkləşdirəcəyi ilə bağlı ünvanladığım suallarıda Aysun özünəməxsus tərzdə inadkarcasına cavablandırdı:

- Ali təhsilimi Belçika universitetində davam etdirəcəyimi qərarlaşdırmışam. Eyni zamanda bir neçə ölkənin ali məktəbinə qəbul imtahanlarında iştirak etdim və qəbul da olundum, seçimimsə Belçika universiteti oldu. Çünki bu ölkəyə marağım daha çoxdur. Dövlətimiz tərəfindən gənclər üçün böyük imkanlar yaradılır və bu imkanlardan bəhrələnərək biz də daim öz üzərimizdə çalışmalı, irəli addımlamalıyıq. Bu işıqlı yolda bizə dəstək olan peşəkar müəllimlərimizin və bizə qol-qanad verən, parlaq gələcəyə ruhlandıran valideynlərimizin qarşısında baş əyirəm. Bu iki müqəddəs varlıq gələcəyimizi təmin edən barometrlərdir. Onların ötürdükləri enerji tükənməz bilmədən bizi xoşbəxt gələcəyə ünvanlayacaq.

**Sifai SƏFƏROVA**